**“Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın 2014-cü il üzrə icrası barədə**
**Məlumat**

| Sıra №-si | Tədbirin adı | Tədbirin icra vəziyyəti | İcra müddəti |
|---|---|---|---|
| 4.1.1. | Vergi siyasətinin və vergi dərəcələrinin optimallaşdırılmasının davam etdirilməsi | “Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 20 iyun 2014-cü il tarixli 1004-IVQD nömrəli Qanununa əsasən 2015-ci ilin yanvarın 1-dən fiziki şəxslərin əmlak vergisinin binaların inventarlaşdırılmış dəyərinə əsasən deyil, binaların sahəsinin (yaşayış sahələrinə münasibətdə - onların 30 kvadratmetrdən artıq olan hissəsinin) hər kvadratmetrinə görə ödənilməsi nəzərdə tutulur. Həmin qanuna əsasən 2015-ci ilin yanvarın 1-dən torpaq vergisi 10 min kvadrat metrədək olan torpaq sahələri üzrə hazırda qüvvədə olan dərəcələr, 10 min kvadrat metrdən artıq olan torpaq sahələri üzrə isə hazırda qüvvədə olan dərəcələrdən 2 dəfə artıq dərəcələr tətbiq edilməklə hesablanacaqdır.<br>Eyni zamanda, “Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 16 may 2014-cü il tarixli 959-IVQD nömrəli Qanununa əsasən kənd təsərrüfatı məhsullarının istehsalçılarına Vergi Məcəlləsində qeyd olunan qaydada mənfəət, əmlak, sadələşdirilmiş və əlavə dəyər vergiləri üzrə 1 yanvar 2014-cü il tarixindən 5 il müddətinə verilmiş güzəştlər, həmçinin körpələr evləri, körpələr evi-uşaq bağçaları, uşaq bağçaları, xüsusi uşaq bağçaları və uşaq evlərinə 1 yanvar 2014-cü il tarixindən 10 il müddətinə verilmiş mənfəət və sadələşdirilmiş vergiləri üzrə güzəştlər Vergi Məcəlləsinə daxil edilmişdir. Bununla əlaqədar həmin güzəştləri nəzərdə tutan qanunlar ləğv edilmişdir.<br>“Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 27.12.2013-cü il tarixli 881-IVQD nömrəli Qanununa əsasən 2014-cü il yanvarın 1-dən Vergi Məcəlləsinin 102.1.6-cı maddəsində “200” rəqəmi “250” rəqəmi ilə, “2400” rəqəmi “3000” rəqəmi ilə əvəz edilmişdir. Bununla fiziki şəxsin əsas iş yerində (əmək kitabçasının olduğu yerdə) hər hansı muzdlu işlə əlaqədar əldə edilən aylıq gəliri 250 manatadək olduqda əmək qabiliyyətli əhali üçün ölkə üzrə yaşayış minimumunun 1 misli (136 manat), illik gəliri 3000 manatadək olduqda əmək qabiliyyətli əhali üçün ölkə üzrə yaşayış minimumunun 12 misli (1632 manat) məbləğində olan hissəsi fiziki şəxslərin gəlir vergisindən azad edilmişdir. | 2014-2018 |
| 4.1.2. | Elektron xidmətlərin əhatə dairəsinin | Hesabat dövrü ərzində vergi ödəyicilərinə internet üzərindən göstərilən elektron xidmətlərin çeşidi və həcmi daha da genişləndirilmişdir. Belə ki, “Vergi ödəyicisinin | 2014-2018 |

| Sıra №-si | Tədbirin adı | Tədbirin icra vəziyyəti | İcra müddəti |
|---|---|---|---|
| | genişləndirilməsi və elektron auditin aparılması metodologiyası ilə bağlı təkliflərin hazırlanması | təsərrüfat subyektinin (obyektinin) onlayn qeydiyyatı", "Vergi ödəyicisinin filialının, nümayəndəliyinin onlayn qeydiyyatı", "Vergi ödəyicisinin filialının, nümayəndəliyinin onlayn qeydiyyatdan çıxarılması", "ƏDV məqsədləri üçün qeydiyyatın onlayn ləğv edilməsi", "Vergi partnyorluğu Sazişi"nin bağlanması üçün ərizələrin qəbulu, "Cari vergi ödəmələrinin hesablanması haqqında Arayış"ın təqdim edilməsi və "Azərbaycan Respublikasında kommersiya hüquqi şəxslərin dövlət qeydiyyatı haqqında məlumatın dərc edildiyi mətbu nəşrdə kommersiya hüquqi şəxsin ləğv edilməsi, kreditorların tələblərinin bildirilməsi qaydası və müddəti haqqında ilk məlumatın dərc edilməsi ilə bağlı müraciətlərin qəbulu və dərc olunma faktını təsdiq edən sənədin verilməsi" kimi daha 7 elektron xidmət üzrə müvafiq proqram təminatları hazırlanaraq istifadəyə verilmişdir. Həmin xidmətlər üzrə hazırlanmış inzibati reqlamentlər Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə razılışdırılmaqla Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilmişdir.<br>Eyni zamanda internet üzərindən vergi ödəyicilərinə fəaliyyətlərinin dayandırılması barədə arayışın əldə edilməsi, İnternet Vergi İdarəsində Avtomatlaşdırılmış Bəyannamə Tərtibi (ABT) proqramı yaradılaraq vergi ödəyicilərinin istifadəsinə verilmişdir.<br>Elektron xidmətlərin əhatə dairəsinin genişləndirilməsi ilə bağlı hesabat dövründə "Fəaliyyətinə xitam verilmiş fiziki şəxsin fəaliyyətinin bərpa edilməsi", "Fiziki şəxsin vergi uçotundan çıxarılması haqqında" ərizələrin elektron şəkildə vergi orqanına təqdim edilməsi məsələsi üzrə Texniki Tapşırıq əsasında müvafiq proqram təminatı hazırlanmışdır.<br>Vergilər Nazirliyi tərəfindən vergi ödəyicilərinin gəlir vergisinin və ya mənfəət vergisinin hesabatının verilməsi müddətinin 3 ayadək uzadılması barədə müraciətlərinin elektron qaydada qəbul edilməsi imkanı yaradılması istiqamətində texniki və hüquqi tədbirlər görülmüş, elektron müraciət forması vergi ödəyicilərinin "e-kargüzarlıq" elektron qutusunda yerləşdirilərək istifadəyə verilmişdir.<br>Eyni zamanda "Mərkəzi icra hakimiyyəti orqanları tərəfindən konkret sahələr üzrə elektron xidmətlərin göstərilməsi Qaydaları"nın və "Elektron xidmət növlərinin Siyahısı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 24 noyabr tarixli 191 nömrəli qərarında dəyişikliklərin edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı"nın layihəsi hazırlanmışdır. | |

| Sıra №-si | Tədbirin adı | Tədbirin icra vəziyyəti | İcra müddəti |
|---|---|---|---|
| | | Bəyannamələrin və ərizə formalarının vergi orqanının daha təcrübəli (Çağrı Mərkəzinin bu sahədə ixtisaslaşmış) əməkdaşları tərəfindən tərtib edilməsi və nəticədə uyğunsuzluq yaranma ehtimalının minimumlaşdırılması, onların hazırlanmasına sərf olunan vaxtın azaldılması, vergi ödəyicilərinin "Asan İmza"dan istifadələrinin stimullaşdırılması və bununla da bütün elektron xidmətlərdən istifadənin daha da artırılması məqsədi ilə bəyannamələrin və ərizələrin göndərilməsi üçün "ASAN imzadan istifadə etməklə Çağrı Mərkəzi vasitəsilə vergi ödəyicilərinə əməliyyat xarakterli xidmətlərin göstərilməsi" və "Çağrı Mərkəzi vasitəsilə Sadələşdirilmiş verginin bəyannaməsinin təqdim edilməsi" ilə bağlı xidmət layihələri hazırlanmışdır.<br>Hesabat ili ərzində vergi ödəyicilərinə xidmət mərkəzlərindən və orada xidmət göstərən təmsilçilərdən vergi ödəyicilərinin və vətəndaşların məmnun qalma səviyyəsinin ölçülməsi məqsədilə Vergilər Nazirliyi tərəfindən "Birlikdə daha yaxşı olaq!" və Vergilər Nazirliyinin Çağrı Mərkəzindən razı qalma səviyyəsinin ölçülməsi və vergi ödəyicilərinin fikirlərinin öyrənilməsi məqsədilə "İrad və təklifləriniz bizim üçün əhəmiyyətlidir" adlı anket-sorğularının layihələri hazırlanmış və anket-sorğuların Vergilər Nazirliyinin rəsmi internet səhifəsi www.taxes.gov.az vasitəsilə keçirilməsi üçün tətbiqinə başlanılmışdır.<br>Könüllü əməletmənin artırılması, vergilərin vaxtında və büdcəyə düzgün təsnifatla daxilolmalarını təmin etmək, vergi ödəyicilərinin vergilərin köçürüləcəyi hesablar barədə məlumatlandırılması məqsədilə vergi ödəyicilərinin bəyannamələrinin göndərilməsini təsdiq edən bildirişin yeni formasının layihəsi hazırlanmışdır.<br>Eyni zamanda Vergilər Nazirliyinin rəsmi internet səhifəsinə daxil olan istifadəçilərin axtardıqları məlumatları tez və rahat tapması üçün "Onlayn bələdçi" xidməti istifadəyə verilmişdir.<br>Xidmət mərkəzlərinə müraciət etmiş şəxslərin müraciət vərəqələri ilə əlaqədar hazırlanmış cavab sənədlərinin hazır olub-olmaması barədə məlumatın İnternet Vergi İdarəsi vasitəsi ilə əldə edilməsi üçün Vergilər Nazirliyinin İnternet Vergi İdarəsinin (www.e-taxes.gov.az) "Məlumat axtarış sistemi" adlı bölməsində "Hazır sənəd barədə məlumatın axtarışı" pəncərəsinin yaradılması üçün xidmət layihəsi hazırlanmışdır. | |
| 4.1.3. | Sahibkarlara göstərilən vergi xidmətlərinin yaxşılaşdırılması və | İcraçı şirkətlə bağlanmış müqavilənin şərtlərinə uyğun olaraq xidmət mərkəzlərində növbə, qeydiyyat və səsyazma sistemlərinin quraşdırılmasına başlanılmış, hal-hazırda 9 xidmət mərkəzində quraşdırma işlər başa çatdırılmışdır. | 2014-2018 |

| Sıra №-si | Tədbirin adı | Tədbirin icra vəziyyəti | İcra müddəti |
|---|---|---|---|
| | əhatə dairəsinin genişləndirilməsi məqsədilə vergi xidmət mərkəzlərinin yaradılmasının davam etdirilməsi | Hesabat dövründə Sabunçu rayonunun Bakıxanov qəsəbəsində Bakı şəhəri Vergilər Departamentinin yeni Vergi ödəyicilərinə xidmət mərkəzi istifadəyə verilmişdir. Xidmət mərkəzində fiziki və hüquqi şəxslərə bütün vergi xidmətləri, o cümlədən elektron xidmətlər göstərilir. Mərkəzdə vətəndaşlara vergi qanunvericiliyinin tətbiqi barədə izahatlar verilir, müraciət edənlərə büdcəyə olan borclarının öyrənilməsi və öz şəxsi vərəqələrinə baxmaq imkanı yaradılır, vergilərə aid ərizə və hesabat formalarının, buklet və digər nəşrlərin verilməsi təmin edilir.<br>Vergi orqanlarının büdcədənkənar fondunun vəsaiti hesabına 10 ədəd xidmət mərkəzinin tikintisi və mövcud xidmət mərkəzlərinin binalarında yenidənqurma işlərinin yerinə yetirilməsinə dair müqavilələr bağlanılmış və hal-hazırda işlərin icrası üzrə müvafiq tədbirlər görülür. | |
| 4.1.4. | Ədalətli rəqabət mühitinin formalaşdırılması istiqamətində tədbirlərin davam etdirilməsi | Ədalətli rəqabət mühitinin formalaşdırılması istiqamətində tədbirlərin davam etdirilməsi məqsədilə 2014-cü ilin hesabat dövrü ərzində səyyar vergi yoxlaması başa çatdırılmış 11017 vergi ödəyicisindən 10954-də vergi qanunvericiliyinin pozulması hallarına görə 870,1 milyon manat əlavə vəsait hesablanmışdır ki, bunun da 541,8 milyon manatını hesablanmış vergi, 328,3 milyon manatını maliyyə sanksiyası (faizlə birlikdə) təşkil etmişdir.<br>Eyni zamanda, ötən hesabat dövrü ərzində operativ nəzarət strukturlarının fəaliyyəti daha da gücləndirilmiş və nəzarət işlərinin səmərəliliyi yüksəldilmişdir. Belə ki, həmin dövrdə əhali ilə nağd pul hesablaşmalarının aparılması qaydalarına əməl olunmasına nəzarət üzrə operativ vergi nəzarəti tədbirləri aparılmış 26204 obyektdən 24563-də qanun pozuntuları aşkar edilərək, 11754,4 min manat məbləğində maliyyə sanksiyası tətbiq edilmişdir.<br>Vergi orqanlarında uçota durmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslərin aşkar edilməsi üzrə həyata keçirilmiş operativ vergi nəzarəti tədbirləri nəticəsində sahibkarlıq fəaliyyəti göstərən 2544 şəxsin vergi orqanlarında qeydiyyatdan keçmədiyi aşkar olunmuş, həmin şəxslər barəsində müvafiq akt tərtib edilərək, 97,0 min manat məbləğində maliyyə sanksiyası tətbiq edilmişdir. Hazırda həmin şəxslərdən 2302 nəfərin vergi orqanlarında uçota alınmaları təmin edilmiş, digərləri barədə isə bu məqsədlə müvafiq tədbirlər görülməkdədir.<br>Hesabat dövrü ərzində daxil olmuş məlumat və materiallar üzrə qanunsuz sahibkarlıq faktları ilə bağlı başlamış cəmi 53 cinayət işindən 25 cinayət işinin istintaqı tamamlanaraq | 2014-2018 |

| Sıra №-si | Tədbirin adı | Tədbirin icra vəziyyəti | İcra müddəti |
|---|---|---|---|
| | | müvafiq qaydada məhkəməyə göndərilmiş, digər işlər üzrə ibtidai istintaq davam etdirilir.<br>Aksiz markaları ilə markalanmalı olan məhsulları (malları), belə marka olmadan satış məqsədi ilə saxlama faktları ilə bağlı daxil olmuş materiallar üzrə 6 cinayət işi başlanmışdır. Hesabat dövründə göstərilən faktlarla bağlı 2 nəfər şəxs barəsində 2 iş üzrə ibtidai istintaq tamamlanaraq baxılması üçün məhkəməyə göndərilmiş, digər işlər üzrə ibtidai istintaq davam etdirilir.<br>Cari ildə saxta aksiz markalarını satış məqsədilə əldə etmə faktı ilə bağlı daxil olmuş 1 (bir) material üzrə Azərbaycan Respublikası CM-nin 205-1-ci maddəsi ilə cinayət işi başlanmış və hesabat dövründə həmin işin istintaqı tamamlanaraq məhkəməyə göndərilmişdir.<br>Hesabat dövründə qanunla müəyyən edilmiş qaydada akkreditasiya olunmadan idman mərc oyunlarının keçirilməsi faktları ilə bağlı daxil olmuş materiallar üzrə Azərbaycan Respublikası CM-nin 192-1.2-ci maddəsi ilə 4 cinayət işi başlanmışdır. Hesabat dövründə göstərilən faktlarla bağlı 1 (bir )nəfər şəxs barəsində 1(bir) iş üzrə ibtidai istintaq tamamlanaraq baxılması üçün məhkəməyə göndərilmiş, digər işlər üzrə ibtidai istintaq davam etdirilir.<br>Hesabat dövrü üzrə aparılmış nəzarət nəticəsində 1700 obyektdən 852-də 36,0 min manat məbləğində 10,6 min ədəd aksiz markaları ilə markalanmamış və ya saxta aksiz markaları ilə markalanmış tütün məmulatı və alkoqollu içkilər aşkar edilmişdir. Qanun pozuntusu halları ilə əlaqədar inzibati xəta haqqında 859 protokol tərtib edilmiş və materiallar baxılması üçün aidiyyəti məhkəmə orqanlarına göndərilmişdir.<br>"Fərqlənmə nişanı" almadan avtomobil nəqliyyatı ilə sərnişin və yükdaşıma fəaliyyəti ilə məşğul olan şəxslərin aşkar edilməsi üzrə aparılmış operativ nəzarət tədbirləri nəticəsində 2768 şəxsin "Fərqlənmə nişanı"nı almadan avtomobil nəqliyyatı ilə sərnişin və yükdaşıma fəaliyyəti göstərməsi faktı aşkar edilmiş, həmin şəxslər barəsində 107,0 min manat məbləğində maliyyə sanksiyası tətbiq edilmişdir.<br>Əmək müqaviləsi (kontraktı) bağlamadan minmədən işəgötürənlər tərəfindən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi hallarının aşkar edilməsi üzrə həmin dövrdə nəzarət aparılmış 3438 obyektdən 1716-da nöqsan aşkar edilmişdir. Nəzarət işləri nəticəsində həmin obyektlərdə 2141 nəfər fiziki şəxsin əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işlərin (xidmətlərin) yerinə yetirilməsinə | |

| Sıra №-si | Tədbirin adı | Tədbirin icra vəziyyəti | İcra müddəti |
|---|---|---|---|
| | | cəlb edildiyi aşkar olunmuşdur. Qanun pozuntusuna yol vermiş şəxslər barəsində Vergi Məcəlləsinə müvafiq olaraq 2063,0 min manat məbləğində maliyyə sanksiyası tətbiq edilmişdir.<br>Valyuta sərvətlərinin ödəniş vasitəsi kimi qəbul edilməsi hallarının aşkar edilməsi üzrə həyata keçirilmiş operativ vergi nəzarəti nəticəsində 4421 obyektdən 4406-da qanunvericiliyin pozulması faktları aşkar edilmiş, təqsirkar şəxslər barəsində tərtib olunmuş inzibati xəta haqqında protokollara əsasən 256,6 min manat məbləğində inzibati cərimə kəsilmişdir.<br>Valyuta sərvətlərinin ticarət, iaşə və xidmət müəssisələrində qanunvericiliklə müəyyən edilmiş qaydalar pozulmaqla alınıb-satılması və ya dəyişdirilməsi faktlarının aşkar edilməsi üzrə həyata keçirilmiş operativ vergi nəzarəti tədbirlərinin nəticələrinə görə inzibati xəta haqqında 5262 protokol tərtib edilərək, 391,1 min manat məbləğində inzibati cərimə kəsilmişdir.<br>Xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyət növləri ilə belə razılıq (lisenziya) olmadan məşğul olan şəxslərin aşkar edilməsi istiqamətində operativ vergi nəzarəti həyata keçirilmiş 7568 obyektin hamısında qanunvericiliyin pozulması faktları aşkar edilmişdir. Nəzarətin nəticələrinə görə aşkar olunmuş qanun pozuntuları barədə tərtib olunmuş materiallar baxılması üçün aidiyyəti dövlət orqanlarına göndərilmişdir. | |